DOI: 10.36719/2663-4619/59/36-40

**Şəms Ənvər qızı Bünyatova**
quliyeva.shems@gmail.com
Sumqayıt, Azərbaycan

# PLATON EPİSTEMOLOGİYASINDA "ALETHEİA"- HƏQİQƏT KATEQORİYASININ TƏHLİLİ

**Xülasə**

Məqalədə Platonun "Mağara" alleqoriyası və "Bölünmüş xətt" analogiyasına, həmçinin dialoqlarına müraciət olunaraq onun həqiqət anlayışını necə izah etdiyi əks olunmuşdur. Eyni zamanda həqiqət anlayışı episteme- doksa ikiliyi kontekstində təhlil olunmuş və buna uyğun olaraq filosofun formalaşdırdığı iyerarxik bilik ideyası araşdırılmışdır. Platonun fəlsəfəsinin ana xəttini təşkil edən idealar dünyası həqiqətin və biliyin var olduğu aləm kimi dəyərləndirilmiş, həqiqi ilə onun kölgəsi fərqləndirilmişdir. Qeyd olunanlarla yanaşı Platonun irəli sürdüyü metafizik xarakterli həqiqətə qovuşmanın yollarından bəhs olunmuşdur. Həqiqətin tarixən ən qədim nəzəriyyəsi-korrespondent nəzəriyyənin ilk təmsilçisinin Platon olduğu məqalədə vurğulanmışdır.

***Açar sözlər:*** *Platon, aleteiya, episteme, doksa,idea, bilik, bolünmüş xətt*

## Analysis of The Category of Truth - "Aletheia" in Plato's Epistemology

**Summary**

The article reflects the explanation of the concept of the truth by Plato, referring to his allegory "the Cave" and the analogy "the Divided Line" as well as to the dialogues. At the same time, the concept of the truth is being analyzed in the context of episteme and doxa and, accordingly, the hierarchical idea of knowledge, formed by the philosopher, is being investigated. The world of ideas, which forms the basis of Plato's philosophy, is assessed as a world where there is the truth and the unity, the true is separated from its shadow. In addition to the above, Plato's ways of achieving the metaphysical truth are being discussed. The article emphasizes that Plato was the first representative of the oldest theory in history, the theory of correspondence of the truth.

***Key words:*** *Plato, aletheia, episteme, doxa, idea, knowledge, the divided line*

## Giriş

Presokratik dövrdən bu günə qədər fəlsəfənin ən mübahisəli mövzularından biri həqiqət məsələsi olmuşdur. "Avropa fəlsəfəsi Platonun fəlsəfəsinə istinaddır" deyən A.N.Uaythedin fikrini əsas götürsək, həqiqətlə bağlı müasir baxışların da kökünün doğrudan da Platona söykəndiyini görə bilərik. Hamı üçün tək həqiqət var deyən Platonun məsələyə baxışını dərk etmək üçün onun fəlsəfi sisteminin bazisini təşkil edən idealar anlayışına müraciət etmək vacibdir.

Sofistlərə görə, biliyin mənbəyi hiss üzvləri vasitəsilə əldə edilən təcrübədən ibarətdir və hər şey daim axır, dəyişir, məhz buna görə də hər kəs üçün keçərli, universal həqiqət anlayışı yoxdur. Cəmiyyətdə dominant olan bu sofist baxışlara əsasən, mütləq və dəyişməz həqiqət olmayıb, bilik və həqiqət fərdin qavrama qabiliyyətinə, sosial, mədəni və individual meyillərə uyğun formalaşır. Bu baxımdan dəyərləndirildiyində həqiqət anlayışından üz çevirən sofist düşüncəsinin hökmranlığı və onların yetişdirdiyi ritoriklərin polisin həyatında əsas fiqur olmaları Platon üçün sosial, fəlsəfi, üstəlik də əxlaqi krizin səbəbi olmuşdur. Platona görə, Sokratın edamı bu krizi açıq-aşkar sübüta yetirən ən qüvvətli dəlil, bununla yanaşı həqiqətin varlığını elan edən və sofistlərlə mübarizə aparan düşüncənin edama məhkum edilməsi demək idi.

Sokrat əleyhinə qurulan məhkəmənin əsas iddialarından biri onun "gəncləri yoldan çıxarması" idi. Halbuki Platona görə, bu iddia yalnızca sofistlərə qarşı istifadə edilə bilər. Çünki həqiqi şeyləri təqlid edən hiyləgər sofist hələ həqiqət haqqında doğru biliklərlə tanış olmamış gəncləri aldadaraq söylədiyi sözlərin həqiqət, özünün isə ən müdrik şəxs olduğuna inandırır. Platona görə, sənət bir növ bilikdir, heykəltaraş, həkim müəyyən biliyə sahib olduqları üçün onlara sənət demək mümkündür. Lakin öz sənətini ritorika adlandıran sofistin biliyindən söhbət gedə bilməz. Çünki ritorik "doğru və yalnış haqqında məlumat verən şəxs deyil, inandırma ustasıdır". Ritorikin biliyə ehtiyacı yoxdur, o kütləni bilikli olduğuna inandırandır. Bu mənada ritorikanın mahiyyəti yaltaqlıqdır. Səbəbi isə ritorikin məqsədi yaxşını və ya həqiqəti axtarmaq deyil, onu dinləyənlərə xoşa gələni verməkdir. Platona görə, onlar mimetik vasitə kimi dildən istifadə edərək sophosu təqlid edirlər [6, s 109-112].

Platonun "Teatet" ("Theaitetos") dialoqunun başlıca mövzusu ilk sofistlərdən hesab olunan Protoqorun "Həqiqiət" adlı kitabında bəhs olunan həqiqət doktrinasının təkzib olunmasından ibarətdir. Sofist düşüncə

tərzinin onurğa sütununu təşkil edən "insan hər şeyin ölçüsüdür" ifadəsi Protoqorun bu əsərinin ana xəttini təşkil edir. Bu relyativist fikir öncəliklə doğruluq və yanlışlığın aradan qaldırılmasına səbəb olur ki, bu da hər kəsin fikrinin doğruluğuna və müdrikliyin yox olmasına gətirib çıxarır. Platon adı çəkilən dialoqunda məsələyə etirazını belə dilə gətirmişdir: "Bütün fikirlər özlüyündə doğru və gerçəkdirsə, başqalarına pul qarşılığında dərs verən Protoqor necə müdrik hesab oluna bilər?". Çünki sofistlərə görə, doğru yoxdur, digərinə nisbətən daha doğru bilik anlayışı vardır və həqiqətin faydalılığı sofist üçün daha vacibdir.

Platona görə, həqiqət yalnızca epistemoloji problem deyildir, onun həqiqilik və yanlışlıqdan kənarda dayanan xüsusi mənası mövcuddur. Onun fikrincə əsas məsələ həqiqətin özünü bilməkdir. Bunun üçün isə ilk öncə varlığı anlamaq vacibdir, çünki bilik və varlıq bir-birilə iç-içədir. Həqiqət isə varlıqla bilik arasında yerləşən kateqoriyadır. Bir şeyin həqiqətinə çatmayan, onun haqqında bilik əldə edə bilməz; varlığı qavramayan, həqiqəti qavraya bilməz. Filosofa görə, yalnızca ruhuna qayğı göstərən insan həqiqətə çata bilər, çünki həqiqətə gedən yol öncəliklə varlıqdan keçir və varlığı qavramaq üçün ruh bədəni geridə qoymalıdır. Ruh bədən haqqında hər şeyi unudaraq yalnız qaldığı zaman düşünməyə başlayır. Onun bədənlə vəhdəti və təması ən aşağı səviyyəyə çatdıqda ruh var olanı (varlığı) qavrayır. Ölümlü dünyada bədənin nəfsindən arınmış ruhun gözü obyekti idealar olan həqiqətə (aletheia) tamaşa edəcəkdir.

Həqiqət nədir sualına verilən ənənəvi cavablar əsasən biliyin obyektinə uyğunluğu və ya gerçəkliyə adekvat olan təklif və nəzəriyyələrdir kimi səslənir. Bu kontekstdə ilk sistemləşdirilmiş düşüncə Platona aiddir. Məhz bu fikir həqiqətin tarixən ən qədim konsepsiyası olan korrespondent konsepsiyasının əsasını təşkil edir. Qeyd olunduğu kimi korrespondent konsepsiyaya əsasən həqiqət biliklə onun obyektinin birbirinə uyğunluğu münasibətlərinə əsaslanır. Platona görə, həqiqət bilik ilə varlıq arasında qurulan əlaqə sayəsində aşkarlana bilər. Bununla yanaşı biliyin həqiqilik dəyəri ilə biliyin mövzusu olan varlığın ontoloji özəlliyi arasında da təyinedici əlaqə mövcuddur. Məhz göstərilən iki cür əlaqə forması öz növbəsində epistemologiya ilə ontologiya arasında qarşılıqlı münasibətin vurğulanmasıdır. Platona görə həqiqi biliyin mənbəyi proses halındakı dəyişənlər dünyası deyil, dəyişməz, mütləq var olanların dünyası olmalıdır. Bu mənada biliyin həqiqiliyini müəyyən edən ontolojik xüsusiyyətlər onun dəyişkənliyi və ya dəyişməzliyidir.Varolanlar arasında dəyişməzlik xüsusiyyətini özündə daşıyan şeylər varsa, bu halda onun verdiyi bilik də həmin özəlliklərə sahib olmalıdır. Bu halda gerçək, həqiqi bilik dəyişməzlərin biliyidir, epistemadır. Göründüyü kimi Platonun yanaşmasında biliyin ölçüsü təkcə doğruluq, həqiqilik deyil, eyni zamanda dəyişməzlikdir.

Platon ontologiyasına görə gerçəklik insandan asılı olmayaraq var olan "dəyişməzlər şəbəkəsi" kimi təsəvvür edilən idealar dünyasıdır. Platonun formalaşdırdığı bilik sisteminin əsasını idealara dair bilik, yəni episteme və görünən dünyaya dair bilik, yəni doksa anlayışlarının fərqləndirilməsi təşkil edir. Filosofa görə, hər şey daimi dəyişikliyə uğradığı halda, bilik də durmadan dəyişiləcəkdir və bilik olmaq statusunu itirəcəkdir. Bu halda dəqiq, həqiqi bilikdən söhbət gedə bilməz. Halbuki Platona görə, həqiqi biliyin mənbəyi idealardır və onların yoxluğu şəraitində həqiqətin mövcudluğu da qeyri- mümkündür. Çünki idealar əzəli, əbədi, hərəkət etməyən, artıb azalmayan şeylərdir [5, s 432-434].

"Hər şey dəyişərsə, heç nə olduğu kimi qalmazsa, zənnimcə bilik haqqında danışmaq mümkünsüz olacaqdır, Kratil. Əgər biliyin təbiəti dəyişikliyə məruz qalarsa, o forma etibarilə də dəyişəcəkdir. Bu proses durmadan davam edərsə, dəyişim hərəkətinin baş verdiyi anda bilik də qeyb olacaq və nəticədə nə bilən subyekt, nə də bilinən obyekt-şey qalmayacaqdır" [7, s 259].

Ümumiyyətlə, Platonun biliyə və nəticədə həqiqətə dair baxışlarını anlamaq üçün onun "Dövlət" dialoqunda ortaya qoyduğu "bölünmüş parça və ya xətt" ("the divided line") analogiyasını təhlil etmək vacibdir. Platon bu analogiyada ontoloji baxımdan necə bir dünya təsəvvür etdiyini, bu dünyada epistemenin yerini və aletheia, yəni həqiqətin necə aşkarlanacağını izah etmişdir. O burada həm varlığın ayrı-ayrı təbəqələrini, həm də onlara paralel olaraq episteme-doksa qarşıdurması vasitəsilə bilik anlayışının açıqlamasını vermişdir. Eyni zamanda Platonun sxematik təsvirində aletheia-nın ontoloji-epistemoloji baxımdan fazaları əks olunmuşdur.

İlk öncə bir parçanı fikrən iki hissəyə, alınmış parçaları da yenidən bərabər olmayan iki hissəyə bölmək gərəkdir. Bölünmüş parçalardan ikisi bizə dəyişən, yaranan və yox olan, gözlə görünən, duyğulara tabe olan qaranlıq dünyayla ("horaton", "visible realm") bağlı biliyi-doksa, digər ikisi isə əksinə dəyişməyən, əbədi varlıqların dünyasına dair ("noeton", "intellectual realm") biliyi- epistemeni verir. Bu bölünmə qeyri-bərabər aparılmışdır, aşağı mərtəbədə yerləşən hər kəsik üstdəkindən daha qısadır. Parçaların uzunluğu onların həqiqətə nə dərəcədə yaxınlaşdığının göstəricisidir. Bu xətt boyu hər mərhələdə fərqli formalarda təzahür edən aletheia, yuxarı çıxdıqca saflaşır və sonda noesis vasitəsilə gizləndiyi zülmətdən aşkara çıxır. "Buna bir etirazın varmı? Görünən dünya saxta və gerçək olmaqla iki yerə bölünür. Bir şeyin əksi, kopyası gerçəyindən nə dərəcədə seçilirsə, doksa və episteme də bir-birindən o fərqlidir. Elə deyilmi?" [2, s 10-11].




Platonun bu təsnifatı bir tərəfdən onun varlıqlar arasında qurmaq istədiyi ontoloji iyerarxiyanı əks etdirdiyi kimi, digər tərəfdən də bu iyerarxiyaya uyğun olaraq biliyin müxtəlif növləri və dərəcələri arasında olan fərqliliyi ifadə edir. Bu iyerarxik quruluşda aşağıdan yuxarıya varlığın dörd səviyyəsi obrazlar, obyektlər, riyazi obyektlər və idealar, həmçinin onları başa düşmək üçün istifadə olunan idrak vasitələri təxmin etmə və ya xəyal etmə, inanmaq, fikirləşmək və anlama dayanır.

Platonun bilik iyerarxiyasında eikasia yəni ehtimal və ya təxmin etmə ən aşağı pillədə dayanan bilik növüdür. Eikasia bir varlığın əks olunan kölgəsinə əsaslanaraq onun əsl, gerçək obrazını təxmin etmək mənasını ifadə edir. Platonun mağara bənzətməsində dustaqların gördüyü kölgələr və buna adekvat olaraq özləri üçün formalaşdırdıqları gerçəkliyi buna misal gətirmək olar. İkinci pillədə yerləşən və mənbəyini duyğuların təşkil etdiyi bilik növü pistis və ya inamdır. Platona görə, pistis eikasiaya nəzərən daha güvənilir bilik hesab olunsa da,ona həqiqi bilik statusu verilə bilməz. Platon buna maneə olan iki səbəb göstərir. İlk növbədə hiss orqanlarının yaratdığı illuziyalar onların etibarsız mənbə olmasına əsas verir. Həmçinin bu biliyin obyektlər hesab olunan sensor obyektlər daimi dəyişikliyə uğradığı üçün həqiqi bilik ola bilməzlər. Filosofun eikasia və pistis kimi göstərdiyi iki bilik növü birlikdə Eley məktəbi tərəfindən də fərziyyə kimi qəbul olunan doksanı təşkil edir. Platona görə, doksa- bu dünyaya köçməzdən öncə Lethe çayından keçən ruhların idealar haqqında bildiklərini unutması, eyni zamanda unutduqlarını da yaddan çıxarması mənasını verir. Doksa idealları nəzərə almadan, dünyəvi vərdişlərə əsaslanan, yalnızca gözlə görünənlərlə əldə olunan bilik olduğu üçün natamamdır [1, s 293-295].

“Günəşin işıqlandırdığı şeylərə baxdığımız zaman gözlərimiz onları necə aydın şəkildə görürsə, ruh da baxışlarını həqiqətin və varlığın işıqlandırdığı şeylərə yönəltdiyi an o şeyi anlayacaq və tanıyacaqdır. Ancaq ruh qaranlığa bürünmüş doğan və ölən şeylər dünyasını seyr etdikdə görmə qabiliyyəti korlaşacaq, yalnızca inanclara (doksa) sahib olacaq, sanki ağlını itirmiş kimi bir ehtimaldan digərinə boylanacaqdır” [9, s 56].

Platonun intellektual səltənət adlandırdığı dəyişməzlərin dünyasına- “noeton”a dair bilik-epsiteme də öz növbəsində iki növ biliyi əhatə edir. Onlardan birincisi dianoia-rəqəmlər, formalar, müstəvilər, həndəsi fiqurlar kimi riyazi obyektlərdən bəhs edən diskursiv bilik, riyazi bilikdir. Platona görə, riyazi olanı qavramaq həqiqəti xatırlama (anamnesis) yolunda vacib kriteriyalardan sayılan paideia-öyrənmə fəaliyyətini mənimsəmək deməkdir. Akademiyanın girişində yazılan “ageometretos medeis eisito!” - “riyaziyyatı qavramayanlar girə bilməz!” İfadəsi də elə buna işarədir. Lakin onu da qeyd etmək lazımdır ki, Platona görə, riyazi biliyi mütləqləşdirmək olmaz, o ideaya çatmaq üçün sadəcə bir pillədir. Ən yüksək səviyyədə dayanan, hissi dünyayla heç bir əlaqəsi olmayan və zamandan, məkandan asılı olmayan idealara əsaslanan saf, absolyut, ilahi bilik isə Platona görə nousdur (noesis) [9, s 59-60]. Doğru fikirlərə əsaslanaraq ideanın metafizik, universal biliyinə- noesisə çatmaq üçün vasitə məhz dialektik metoddur.

“Bölünmüş xətt” alleqoriyası ilə Platon müəyyən mənada üstdəki iki parçanı mağaranın çölündəki dünyaya– ağılla dərk oluna biləcək idealar dünyasına, aşağıdakı iki parçanı isə mağaranın içindəki dünyaya-duyğularla anlaşılan fenomenlər dünyasına bənzədir. Platon Dövlət dialoqunda həqiqətin doğuşunun təkcələrə inanaraq və ya onları dərk edərək deyil, epistemeyə qovuşmaqla mümkünlüyündən bəhs edir: “Doğrudan da elmi sevən kəs ruhən gerçək varlığa qovuşmaq arzusundadır,o, tək-tək şeylərin yaratdığı çoxluqda dayanıb qalmaz. Əksinə heç büdrəmədən yoluna davam edər; hər şeyin mahiyyətini qavrayanadək coşğunluğunu itirməz. Sonra da sevgilisinə qovuşurmuş kimi əsl gerçəkliklə birləşincə ağıl və həqiqəti dünyaya gətirərək doğum sancılarından qurtulmuş olur” [8, s 490].

Platonun fikrincə, idealara xas olan biliyə çatmaq üçün material hissiyyat əvəzinə, təcrübədən asılı olmayan a priori xatırlama (anamnesis) metodundan istifadə olunmalıdır. Hiss üzvləri vasitəsilə xarici aləmdən əldə olunan biliklər bizə bu dünyadakı kopyaları göstərərək, ruhumuzun dərinliklərində gizlənmiş gerçək biliyi (idealları) xatırladır. Maddi dünyanın biliyinə şübhəsiz inanan kəslər heç vaxt mütləq həqiqətə

çata bilməz. Məhz həqiqəti axtarmaq çabası- fəlsəfə yuxarıdan ötürülən işıqla aydınlananların fərqləndirici xüsusiyyətidir.

Platona görə, həqiqət imkansızlıq, çıxılmazlıq, aporiyadır, elə məhz bu səbəbə görə insanın- ruhun mütləq şəkildə onu öhdəliyinə götürərək həll etməli, aşmalı olduğu mərkəzi problemə çevrilmişdir. Platon həqiqətə çatmaq, gizlini aşkara çıxarmaq, (aletheia) yolunda bədən (soma) – ruh (psuche) ikiliyinin mübarizəsi, kölgə-işıq anarxiyasından xüsusilə bəhs edir. İnsan bədəninin maddiliyi, heyvani təbiəti onu gözü ilə görə bilmədikləri, əllə toxuna bilmədikləri qarşısında qorxaq, aciz qılır. Bunun səbəbi bədənin təmasda olduğu hər şeyə sahib omaq, idarə etmək istəyidir. Bu baxımdan Platona görə, bədən doksanın sərhədlərindən kənara çıxa bilmir, nəticədə biliyə, həqiqətə sahib olmaq imkanından məhrum olur. Filosofun fikrincə, insanın doğulması ruhun bədənlə ilk görüşü, onun bədənin sərhədlərinə həbs olunduğu və ruhun bildiklərini unutduğu haldır. Bədən ruhun məhkum olunduğu yerdir, çünki ruh sonsuzluqdan tamamilə qopmuşdur. Olanları olduğu kimi, yəni həqiqəti görməyə çalışmayan bədənin ruhu üçün hətta son mərhələ-ölüm belə aletheia-dan uzaq sonsuz yuxuya dalma fazası olacaqdır. Üzünü mağaranın girişinə çevirməyən ruh doksa aləmində ölümlü bədənin qanunlarından kənara çıxa bilməyərək özü də ölümlü ruh (“immortal soul”) olaraq qalacaqdır.

Ruh hər zaman bədənlə birlikdə olmuşdur, onun qayğısına qalmış, sevmişdir. Cismanilikdən, yəni toxunulan, görülən, içilən, yeyiləndən, cinsi həzzlərdən qeyri bir şeyin gerçək olmayacağına inanacaq qədər bədənin arzu və istəkləri ilə yoldan çıxarılmış, gözlər üçün qaranlıq və görünməz olan, lakin fəlsəfə ilə qavrana biləcəklərdən qorxmağa, nifrət etməyə və qaçmağa vərdiş etmişdir. Bu keyfiyyətlərə malik ruh səncə bədəni saf halda tərk edə bilərmi? [3, s 73-78].

Platon xüsusilə, Dövlət, Fedon, Simpozium dialoqlarında təhsil-paideia məsələsinə diqqəti yönəldərək, onun ruhun hərəkətini məhdudlaşdıran bütün maneələrdən imtina olunması və həqiqəti xatırlamağa kömək edən ən güclü vasitə olduğunu bildirmişdir. Bu mənada təhsil sonsuz, ömür boyu davam edən fəaliyyət kimi dəyərləndirilir. “Hər ruhun daxilində öyrənmə gücü var. Gözün qaranlıqdan aydınlığa çevrilməsi üçün bütün bədən necə geriyə dönməlidirsə, bu bacarığın da aktivləşməsi üçün bədən bütünlükdə ruhla birgə varlığın ən işıqlı tərəfinə yönəlməlidir. Təhsil ruhun bu gücünü həyata keçirmək üçün ən asan sənətdir” [3, s 85-87].

Platon “Sofist” dialoqunda ifadələrin doğruluğu-yalnışlığı (burada gizlilik kimi deyil, uyğunluq mənasında) probleminə də toxunmuşdur. Necə ki, bəzi şeylər bir-birilə uyğunlaşır, bəziləri isə yox, Platona görə bu qayda linqvistik işarələr üçün də keçərlidir. İşarələrin bir hissəsi birbirinə uyğun gəlmir, bunların əksinə birlikdə ahəng təşkil edən işarələr ifadələri formalaşdırır. Yaranan ifadə mütləq şəkildə hansısa “şey ” haqqında olmalıdır, əks halda o absurddur. Bu baxımdan doğru cümlə gerçək olan, həqiqi olan şeylərin varlığını ifadə edir. Yalnış cümlə isə həqiqi olandan, yəni var olandan kənar bir şeyi ifadə edir. Başqa sözlə yalnış fikir var olmayanı var olan kimi qələmə verir. Platonun həqiqət anlayışı ontoloji mənada aşkara çıxmaq-aletheia ilə yanaşı, ifadələrin bir keyfiyyətidir və onun meyarı sözün düşüncə ilə üst-üstə düşdüyü qarşılıqlı əlaqədir. Həqiqi bilik, doğru bilikdir və onun əsas xüsusiyyəti obyektinə adekvat olmasıdır. Öncə də qeyd olunduğu kimi həqiqi biliyin obyekti ağıl gözü ilə görülə bilən özündə gerçəkliklər, yəni idealardır. Platon “Teatet” dialoqunda da yuxarıda ifadələr haqqında deyilənlərin izahatını bir daha vermişdir. Bunun üçün Platon iki cür misal gətirir: “Teatet oturub” və “Hal-hazırda söhbətləşdiyim Teatet uçur”. “Birinci ifadə doğrudur, çünki sənə - Teatetə hazırki vəziyyətini olduğu kimi dilə gətirir. Bunun əksinə ikinci ifadə olmayanı olan kimi göstərdiyi üçün yanlışdır” [4, s 37-38].

Bütün bu deyilənlər həqiqətin uyğunluq nəzəriyyəsinin əsasını təşkil edərək sonrakı dövrdə Aristotelin fəlsəfi fikirlərində daha açıq və geniş ifadəsini tapmışdır. Platon yanlış fikrin və ya sözün ya olanları (ta onta) olmayan kimi, ya da olmayanları (ta me onta) olan şey kimi ifadə etdiyini bildirərək uyğunluq əlaqəsinin iki qütbünü (loqos- ta onta) vurğulamış olur.

## Nəticə

Sonda onu qeyd edə bilərəm ki, Platon üçün həqiqət təkcə epistemoloji deyil, eyni zamanda ontoloji mahiyyət kəsb edən kateqoriyadır. Bu baxımdan həqiqətin izah olunmasında Platonun epistemologiyası və ontoloji baxışları bir-birilə vəhdət təşkil etmişdir. Aletheia-nı, yəni həqiqəti gerçəkdən var olan idealarin unudulması və nəticədə onun gizlin qalması kimi görən Platon, həqiqətin riyaziyyat və fəlsəfənin təlim olunması ilə xatırlana biləcəyini (anamnesis) bildirir. Platonun gizlənmək, üstü örtülmək, unudulmaq kimi başa düşdüyü həqiqətə dair baxışları XX əsr fəlsəfəsində xüsusilə, Haydeggerin fəlsəfəsində öz izahını yenidən tapmışdır. Bundan əlavə onun həqiqəti düçüncənin obyektə adekvatlığı kimi ifadə etdiyi fikri də Aristotel və Akvinalı Tomas tərəfindən çox daha geniş formada təhlil olunaraq korrespondent nəzəriyyənin əsas devizinə çevrilmişdir.

**Ədəbiyyat**

1. Abdullah D. Platonda idea-tikel ilişkisi: Episteme vs doksa. Bülent Ecevit Üniversitesi "İlahiyyat Fakültesi Dergisi" , N 2, Zonguldak, 2015. S 285-300.
2. Cocking J.M. Imagination. A study in the history of ideas. "Routledge", London, 1991. 183p.
3. Çaça E. Platonda aletheia ve etik bir yaratma fealiyeti olarak imkanı, İstanbul, Bilgi Üniversitesi, 2014. 120 s.
4. Harun T. Platondan Habermasa Felsefede Doğruluk ya da Hakikat. "BilgeSu", Ankara, 2016. 224 s.
5. Копцева Н.П. Истина в философии Платона. "Философия и культура ",4, Москва. 2013. 429-436 с.
6. Özgün B. Heidegger ve Badiouda hakikat. "Hacettepe Üniversitesi", Ankara, 2015. 146 s.
7. Platon. Diyaloglar, Kratylos, Dil üstüne çev. Teoman Aktürel. "Remzi Kitabevi", İstanbul, 2009.
8. Platon. Devlet. "Islık Yayınları", İstanbul, 2016. 530 s.
9. Соколов В.В. Антисенсуализм Платона и его концепция идей как констант знания и бытия. Разновидности знания и диалектика как верховная из наук. "Философия и общество", N 5, Москва. 1999. 52-90 с.

**Rəyçi: prof.Ə.Məmmədov**

Göndərilib: 05.11.2020 Qəbul edilib: 08.11.2020